**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

**QƏRAR**

№ 8/2

Bakı şəhəri 05 aprel 2018-ci il

“Azərbaycan Respublikasının Nizami
Gəncəvi adına Qızıl medalı”na namizədlər haqqında

Azərbaycan Respublikasının 16 may 2014-cü il tarixli Qanunu ilə “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” təsis edilmiş, Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanı ilə bu medalla təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir. AMEA Rəyasət Heyətinin 31 yanvar 2018-ci il tarixli, 1/4 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalına 2018-ci il üçün müsabiqə elan edilmişdir.

Müsabiqədə iştirak etmək üçün irəli sürülmüş alimlər haqqında təqdimatlar, müvafiq sənədlərlə birlikdə AMEA prezidentinin 31 mart 2014-cü il tarixli 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim olunmuşdur. Ekspert Komissiyasının 30 mart 2018-ci il tarixində keçirilmiş yekun iclasında Nizami Gəncəvi adına Qızıl medala namizədlər seçilmiş və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilmişdir.

AMEA-nın mükafatlar üzrə Ekspert Komissiyasının namizədlər haqqında təqdimatını nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Dəniz neft və qaz-kondensat yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsinin aktual problemlərinə həsr edilmiş fundamental elmi tədqiqatlarına, Xəzər dənizində neft və qaz yataqlarının kəşf olunması və Azərbaycanda neft sənayesinin inkişafındakı böyük xidmətlərinə görə akademik Xoşbəxt Bağı oğlu Yusifzadə “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” ilə təltif edilsin.
2. Müasir plazma fizikasının yaradılmasına verdiyi fundamental elmi töhfələrinə, beynəlxalq kooperasiyalı kosmik texnologiyaların əldə etdiyi yüksək elmi nəticələrinə və Azərbaycanda kosmik texnologiyaların inkişafındakı böyük

xidmətlərinə görə akademik Roald Zinnuroviç Saqdeyev "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif edilsin.

3. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, təltif edilmiş namizədlərin hər birinə 10 000 (on min) manat vəsaitin ödənilməsini təmin etsinlər.
4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev